# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 463** **Bakı şəhəri, 20 oktyabr 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 avqust tarixli 334 nömrəli qərarı ilə təsdiq edilmiş "Balıqçılıq təsərrüfatı ekspertizasının aparılması Qaydası"nda dəyişikliklər edilməsi haqqında**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 673-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1421 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 avqust tarixli 334 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1622) ilə təsdiq edilmiş "Balıqçılıq təsərrüfatı ekspertizasının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə "15 gün müddətində" sözləri "layihəsi ekspertizadan keçirilməsi tələb olunan obyektlərə münasibətdə 15 gün, layihəsi ekspertizadan keçirilməsi tələb olunmayan obyektlərə münasibətdə 5 gün müddətində" sözləri ilə əvəz edilsin.
2. 2.7-ci və 2.8-ci bəndlərdə "15" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin.
3. 2.10-cu bənd ləğv edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının***
***Baş naziri***